**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

# S Ə R Ə N C A M I

№ 123 "25" İyun 2025-ci il

**Dini əlamətdar günlərin (Məhərrəm ayı) dövlətçilik prinsiplərinə və milli-mənəvi dəyərlərimizə uyğun qeyd olunmasının təmin edilməsi, Aşura günü neqativ halların qarşısının alınması ilə bağlı tədbirlər haqqında**

Ölkəmizdə milli-dini dəyərlərimizə, dini bayram və mərasimlərin keçirilməsinə xüsusi önəm verilir. Odur ki, Binəqədi rayonunda Məhərrəmlik ayının-Aşura mərasimlərinin mövcud qaydalara uyğun olaraq keçirilməsi məqsədilə və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 4.14.4-cü və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Məhərrəm ayında keçirilən Aşura və digər dini ayin və mərasimlərin tənzimlənməsi məqsədilə tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Məhərrəm ayında mərasimlərin dövlətçilik prinsiplərinə və milli-mənəvi dəyərlərimizə uyğun qeyd olunmasının təmin etmək, neqativ halların qarşısının alınması ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətində Xüsusi Qərargah yaradılsın:

**Binəqədi Rayon İcra Hakimiyyətində Xüsusi Qərargahın rəhbəri:**

| | | |
|---|---|---|
| Hacıbaba Babayev | – | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Dini İşlər üzrə Komissiyanın sədri |

**Binəqədi Rayon İcra Hakimiyyətində Xüsusi Qərargahın üzvləri:**

| | | |
|---|---|---|
| Aynur Quliyeva | - | Rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri |
| Rauf Həsənov | - | Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |

Scanned with CamScanner